Xalq qəzeti 2022.- 13 aprel.- S. 7

**_Dövlətimizin başçısı İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsindən ötən 4 il ərzində qarşıya qoyduğu vəzifələr uğurla gerçəkləşdirilib. Dövlət başçısının andiçmə zamanı səsləndirdiyi "növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var" fikirləri həyatda öz təsdiqini tapıb._**

# Müstəqil siyasət, güclü iqtisadiyyat formulu



Bununla bağlı əvvəlcə onu qeyd edim ki, 2018-ci ildən başlayaraq Azərbaycanda yeni sosial paketlərin tətbiqinə başlanılıb. Ötən dövrdə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb. Bu il minimum əməkhaqqının nəzərdə tutulan yaşayış minimumunu (210 manat) 43 faiz üstələyəcəyi proqnozlaşdırılıb. Xalis minimum əmək haqqının orta aylıq əməkhaqqındakı payında da ötən müddətdə artımlar qeydə alınıb. Həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildə 33,3 faizə, 2020-ci ildə 38 faizə yüksəlib, 2022-ci ildə isə 40 faizə səviyyəsinə yüksələcəyi proqnozlaşdırılıb. Bu müddətdə minimum pensiya məbləği 2,2 dəfə artırılaraq 110 manatdan 240 manata çatdırılıb. Təbii ki, bu islahatlar əvvəlki illərdə həyata keçirilən iqtisadi siyasətin nəticəsində mümkün olub.

Son 4 ildə Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyi də güclənib. Çoxsahəli xarici siyasət 44 günlük Vətən müharibəsində qazandığımız zəfərin daha da möhkəmlənməsinə gətirib çıxarıb.

Brüsseldə keçirilən son görüş və əldə olunan razılaşmalar da bunu bir daha təsdiq edir. Azərbaycan hər zaman Avropa İttifaqı (Aİ) daxil olmalqa beynəlxaq təşkilatlar ilə əməkdaşlığın geclənməsinə önəm verir. Etiraf etmək lazımdır ki, Aİ rəhbərliyinin Azərbaycan Prezidenti ilə yaxın təmasları, mütəmadi telefon danışıqları Cənubi Qafqaz regionunda sülh və stabitliyin bərqərar olmasında mühüm amil kimi önəmli rol oynayır.

Onu da bildirim ki, bu dövrdə iqtisadiyyatın diversifikasiyası da daim diqqətdə saxlanılıb. Yeri gəlmişkən, 2022-2026-cı illər əhatə edəcək yeni iqtisadi strategiya bu sahədə islahatların dərinləşməsinə xidmət edəcək. Əsas milli prioritetlər üzrə Azərbaycan iqtisadiyyatında diversifikasiyanın genişlənəcəyi gözlənilir. "Böyük Qayıdış" Proqramı dayanıqlı iqtisadi nəticələri daha da möhkəmləndiriəcək. Artıq həm dünyada, həm də regionda yeni düzən formalaşır. Əminik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu dövrdə də yeni uğurlara imza atacaq.

**_Vüqar BAYRAMOV,_**
**_Milli Məclisin deputatı_**